# BRICS-lə əməkdaşlıq

## Bu, Azərbaycan iqtisadiyyatının təqdimatı baxımından vacibdir

**BRICS-in Kazanda 33 dövlətin nümayəndələrinin iştirakı ilə 16-cı sammiti keçirildi. Braziliya, Rusiya, Hindistan, Çin, Cənubi Afrika tərəfindən təsis edilən BRICS sammitinin gündəliyi iqtisadi məsələlərlə zəngin oldu.**



BRICS-in qlobal iqtisadiyyatda payının artdığının müşahidə olunduğunu deyən Milli Məclisin deputatı Vüqar Bayramov bildirib ki, yalnız son illər təşkilatın payı 35 faizdən 37 faizə qədər yüksəlib. O qeyd edib ki, eyni zamanda Qərb ölkələrinin qlobal ümumi daxili məhsuldakı payı 30 faizdən 28 faizə qədər azalıb. Yəni bu o deməkdir ki, BRICS həm də qlobal gücdür. "Praktik olaraq dünya iqtisadiyyatının 37 faizi məhz bu təşkilata üzv olan ölkələrin payına düşür. Azərbaycan BRICS-lə əməkdaşlığı gücləndirməkdə maraqlıdır. BRICS-lə əməkdaşlıq Azərbaycan üçün xüsusən qeyri-neft məhsullarının ixracı baxımından vacibdir. Daha çox məhsulun BRICS ölkələrinə ixrac olunması qeyri-neft sahəsində gəlirlərimizin artması aspektindən önəmlidir", - deyə deputat əlavə edib.

V.Bayramov vurğulayıb ki, xüsusən pandemiyadan sonra BRICS ölkələri ilə turizm sahəsində əməkdaşlığın güclənməsi müşahidə olunur. Azərbaycana gələn turistlərin əhəmiyyətli hissəsi BRICS ölkələrinin payına düşür. Xüsusən Hindistandan, Çindən Azərbaycana gələn turistlərin sayında kəskin artım müşahidə edilir. Bu da məhz təşkilatla ölkəmizin turizm sahəsində xüsusi əməkdaşlığa malik olduğunu göstərən faktorlardan biridir.

Deputat bildirib ki, BRICS-lə əməkdaşlıq həm də Azərbaycan iqtisadiyyatının təqdimatı baxımından vacibdir: "Bu, nəticə etibarilə Azərbaycan iqtisadiyyatının BRICS coğrafiyasına təqdimatına, həmçinin yeni sərmayələrin cəlb edilməsinə, birgə layihələrin reallaşdırılmasına imkan yarada bilər. Bu baxımdan BRICS Azərbaycan üçün vacib təşkilatlardan biridir".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 29 oktyabr (№ 238).- S.2.